Ədəbiyyat qəzeti

31 oktyabr 2020-ci il 21



Ağacəfər HƏSƏNLİ

# *Ali Baş Komandanım "irəli" deyir ancaq*

*Hərbçi nəvəm Rəşada*

Mənim cəsur əsgərim, bitməyib böyük dava,
Mənfur düşmən hiyləgər, ölkə ağızdan yava.
Murovdan o tərəfə torpaqların ardı var,
Ali Baş Komandanım "irəli" deyir ancaq.

Yar cəbhəni tədricən, keç Laçın dəhlizinə
Qan uddur birdəfəlik min zatı qəlizinə.
"Tüpürsə dabanına", inanma, düş izinə -
Ali Baş Komandanım "irəli" deyir ancaq.

Qoy leşi qismət olsun dağda qarğa-quzğuna,
Dərs ver, igid çavuşum, hər anası pozğuna.
"Bu yerlər gor evindir" söyləməkçün azğına,
Ali Baş Komandanım "irəli" deyir ancaq.

Zəhmətini nə bu xalq, nə də Şuşa itirsin.
Cıdır düzündə qanın xarı bülbül bitirsin...
Tök Tərtərə, Qaraqara
- su murdarlıq götürsün,
Ali Baş Komandanım "irəli" deyir ancaq.

Qayalıqlar çəpərdir, yüksəkliklər divardır,
Livan, Suriya deyil - cığırlar ensiz, dardır...
Muzdlu pulgir qatilin burda nə işi vardır,
Ali Baş Komandanım "irəli" deyir ancaq.

Avropa sifətində inanma səmimidir,
Kəlbəcər hər ürəyin artıq sarı simidir.
İndi birləşib hamı, millət yumruq kimidir...
Ali Baş Komandanım "irəli" deyir ancaq.

Yüz illərdir erməni qaxınc olub başıma,
Gün verir, işıq vermir torpağıma, daşıma.
Allah güc-qüdrət versin,
mənim haqq savaşıma -
Ali Baş Komandanım "irəli" deyir ancaq.